# “ABB-İNVEST İNVESTİSİYA ŞİRKƏTİ” QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**Maliyyə Hesabatları və**
**Müstəqil Auditorların Rəyi**
31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə

## “ABB-İNVEST İNVESTİSİYA ŞİRKƏTİ” QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-3 |
| 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 4 |
| Maliyyə vəziyyəti haqqında hesabat | 5 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7-8 |
| Maliyyə hesabatları üzrə qeydlər | 9-52 |

# MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
# 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə, "ABB-İnvest İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin ("Cəmiyyət") maliyyə hesabatları ilə bağlı Cəmiyyət rəhbərliyinin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2025-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini düzgün şəkildə əks etdirən maliyyə hesabatlarının, Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, xətalar və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 16 aprel 2026-cı il tarixində Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Cəmiyyətin rəhbərliyi adından:**

**Nadir Babazadə**
**İcraçı direktor**

16 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**İlham Musayev**
**Baş mühasib**

16 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"ABB-İnvest İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin Səhmdarı və İdarə Heyətinə:

***Rəy***

Biz "ABB-İnvest İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin ("Cəmiyyət") 31 dekabr 2025-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə əhəmiyyətli uçot prinsiplərinə dair məlumatın qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***Rəy üçün Əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə dair etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***İzahedici Paraqraf – Əlaqəli Tərəflərlə Əməliyyatlar və Qalıqlar***

Biz Cəmiyyətin əlaqəli tərəflərlə əməliyyatlarının əhəmiyyətli konsentrasiya məsələsini təsvir edən maliyyə hesabatlarının 6 saylı Qeydinə diqqət yetiririk. Bu məsələlərlə bağlı rəyimiz şərti deyil.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və Audit Komitəsinin Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

Audit Komitəsi Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz Audit Komitəsinə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Baker Tilly Azerbaijan

16 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

## "ABB-İNVEST İNVESTİSİYA ŞİRKƏTİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
### 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanmış faiz gəlirləri | 6, 7 | 1,532,339 | 1,610,743 |
| Borc alınmış vəsaitlər üzrə faiz xərci | 19 | (778,542) | (959,613) |
| **Xalis faiz gəlirləri** | | **753,797** | **651,130** |
| Xalis haqq və komissiya gəlirləri | 6, 8 | 4,550,758 | 4,197,699 |
| Qiymətli kağızlarla bağlı dilinq əməliyyatları üzrə xalis gəlir | | 9,099 | 7,903 |
| Digər gəlir | | - | 11 |
| **Qeyri-faiz gəlirləri** | | **4,559,857** | **4,205,613** |
| İşçi heyəti üzrə xərclər və əlaqəli xərclər | 6, 9 | (1,982,423) | (1,628,129) |
| Ümumi və inzibati xərclər | 6, 9 | (384,275) | (326,245) |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin bərpası | 6, 14 | 2,735 | - |
| Ticarət aktivləri üzrə investisiya (zərəri)/gəliri | | (2,552) | 5,291 |
| Dividend gəliri | | 2,058 | 2,611 |
| Xarici valyuta əməliyyatları üzrə gəlir/(zərər), xalis | | 1,025 | (1,789) |
| **Qeyri-faiz xərcləri** | | **(2,363,432)** | **(1,948,261)** |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **2,950,222** | **2,908,482** |
| Mənfəət vergisi xərci | 10 | (597,515) | (589,106) |
| **İl üzrə xalis mənfəət** | | **2,352,707** | **2,319,376** |
| **Digər məcmu gəlir** | | | |
| *Növbəti illərdə mənfəət və ya zərərə yenidən təsnifləşdiriləcək digər məcmu gəlir* | | | |
| Digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə borc alətlərinin ədalətli dəyərində xalis dəyişiklik | 6, 14 | 405,799 | (455,321) |
| Digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə borc alətlərinin ehtimal olunan kredit zərərləri üzrə ehtiyatında dəyişiklik | 6, 14 | (2,735) | - |
| Digər məcmu gəlir hesabatında birbaşa uçota alınmış mənfəət vergisi | 10 | (80,613) | 91,064 |
| **Növbəti illərdə mənfəət və ya zərərə yenidən təsnifləşdiriləcək xalis digər məcmu gəlir/(zərər)** | | **322,451** | **(364,257)** |
| **İl üzrə cəmi məcmu gəlir** | | **2,675,158** | **1,955,119** |

**Cəmiyyətin rəhbərliyi adından:**

**Nadir Babazadə**
**İcraçı direktor**

16 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**İlham Musayev**
**Baş mühasib**

16 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

9-52-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Banklarda yerləşdirilmiş pul vəsaitləri | 6, 11 | 14,210,805 | 5,360,169 |
| Əsas brokerlərdən alınacaq vəsaitlər | 12 | 616,445 | 413,770 |
| İnvestisiya qiymətli kağızları | 6, 14 | 14,675,989 | 19,876,228 |
| Alınacaq komissiya haqları | 6, 13 | 340,484 | 310,333 |
| Əmlak və avadanlıqlar | 15 | 71,946 | 50,995 |
| Qeyri-maddi aktivlər | 16 | 65,738 | 64,248 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 10 | 133,231 | 153,911 |
| Digər aktivlər | 17 | 38,832 | 26,115 |
| **CƏMİ AKTİVLƏR** | | **30,153,470** | **26,255,769** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Müştərilərə ödəniləcək vəsaitlər | 18 | 10,339,939 | 2,236,886 |
| Borc alınmış vəsaitlər | 6, 19 | 9,389,114 | 16,277,786 |
| Digər öhdəliklər | 6, 20 | 1,123,804 | 1,115,642 |
| **Cəmi öhdəliklər** | | **20,852,857** | **19,630,314** |
| KAPİTAL: | | | |
| Səhmdar kapitalı | 21 | 3,000,000 | 3,000,000 |
| Bölüşdürülməmiş mənfəət | | 6,076,833 | 3,724,126 |
| İnvestisiya qiymətli kağızları üzrə xalis realizə olunmamış gəlir/(zərər) | 6, 21 | 223,780 | (98,671) |
| **Cəmi kapital** | | **9,300,613** | **6,625,455** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **30,153,470** | **26,255,769** |

**Cəmiyyətin rəhbərliyi adından:**

**Nadir Babazadə**
**İcraçı direktor**

16 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**İlham Musayev**
**Baş mühasib**

16 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

AZƏRBAYCAN RESPUBLİKASI • "ABB-İNVEST İNVESTİSİYA ŞİRKƏTİ" QSC • "IBA INVEST INVESTMENT" CJSC • AZERBAIJAN REPUBLIC

9-52-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "ABB-İNVEST İNVESTİSİYA ŞİRKƏTİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Bölüşdürülməmiş mənfəət | İnvestisiya qiymətli kağızları üzrə realizə olunmamış xalis gəlir/ (zərər) | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il** | **3,000,000** | **1,404,750** | **265,586** | **4,670,336** |
| İl üzrə xalis mənfəət | - | 2,319,376 | - | 2,319,376 |
| İl üzrə digər məcmu zərər | - | - | (364,257) | (364,257) |
| **31 dekabr 2024-cü il** | **3,000,000** | **3,724,126** | **(98,671)** | **6,625,455** |
| İl üzrə xalis mənfəət | - | 2,352,707 | - | 2,352,707 |
| İl üzrə digər məcmu gəlir | - | - | 322,451 | 322,451 |
| **31 dekabr 2025-ci il** | **3,000,000** | **6,076,833** | **223,780** | **9,300,613** |

**Cəmiyyətin rəhbərliyi adından:**

**Nadir Babazadə**
**İcraçı direktor**

16 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**İlham Musayev**
**Baş mühasib**

16 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

9-52-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | | 2,950,222 | 2,908,482 |
| Qeyri-nağd vəsaitlər üzrə düzəlişlər: | | | |
| Köhnəlmə və amortizasiya xərcləri | 15, 16 | 14,735 | 14,025 |
| Xarici valyuta əməliyyatları üzrə xalis (gəlir)/zərər | | (1,025) | 1,789 |
| Hesablanmış faiz üzrə dəyişiklik | | (222,145) | (141,291) |
| Ticarət aktivləri üzrə gəlir | | (15,165) | (7,817) |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin bərpası | 14 | (2,735) | - |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin hərəkəti** | | **2,723,887** | **2,775,188** |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər** | | | |
| Əsas brokerlərdən alınacaq vəsaitlər üzrə xalis dəyişiklik | | (202,978) | (150,511) |
| Alınacaq komissiya haqlarında xalis dəyişiklik | | (30,151) | (101,449) |
| Digər aktivlərdə xalis dəyişiklik | | (12,717) | (3,867) |
| Digər öhdəliklərdə xalis dəyişiklik | | 268,385 | 564,266 |
| **Ödənilmiş mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **2,746,426** | **3,083,627** |
| Ödənilmiş mənfəət vergisi | | (909,000) | (533,000) |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **1,837,426** | **2,550,627** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Borc qiymətli kağızlarının satışı və geri qaytarılması/(alışı) üzrə daxilolmalar, xalis | 14 | 5,808,787 | (2,494,954) |
| Pay qiymətli kağızları üzrə daxilolmalar, xalis | | 9,194 | 23,422 |
| Ticarət aktivləri üzrə reallaşdırılmış gəlir/(zərər) üzrə daxilolmalar/(ödəniş) | | 17,717 | (2,526) |
| Əmlak və avadanlıqlar üzrə ödənişlər | | (34,957) | (16,049) |
| Qeyri-maddi aktivlər üzrə ödənişlər | | (2,219) | - |
| **İnvestisiya fəaliyyətindən daxil olan/(investisiya fəaliyyətinə yönələn) xalis pul vəsaitləri** | | **5,798,522** | **(2,490,107)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Repo müqavilələri əsasında (borc alınmış vəsaitlərin ödənilməsi)/borc alınmış vəsaitlər üzrə daxilolmalar, xalis | 19 | (7,561,022) | 54,345 |
| Digər borc alınmış vəsaitlərdən daxilolmalar, xalis | 19 | 680,000 | 1,700,000 |
| **(Maliyyələşdirmə fəaliyyətinə yönələn)/maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **(6,881,022)** | **1,754,345** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)**
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Xarici valyutalarda saxlanılan nağd pul qalıqları üzrə məzənnə dəyişikliklərinin təsiri | | (7,339) | 6,420 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTMA | | 747,587 | 1,821,285 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | 11 | 3,123,283 | 1,301,998 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | 11 | 3,870,870 | 3,123,283 |

31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində Cəmiyyət tərəfindən ödənilmiş və alınmış faizlər müvafiq olaraq 786,192 AZN və 1,288,201 AZN təşkil etmişdir (31 dekabr 2024-cü il: 970,610 AZN və 1,472,722 AZN).

**Cəmiyyətin rəhbərliyi adından:**

**Nadir Babazadə**
**İcraçı direktor**

16 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**İlham Musayev**
**Baş mühasib**

16 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

9-52-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.